# «Ölkəmizi tanıyaq» tur-aksiyası gənclərə dövlət qayğısının təzahürüdür

## Qəbələ rayon məktəbliləri Gəncədə hərarətlə qarşılanıblar

***“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçısı olan Qəbələ məktəbliləri martın 26-da Gəncə şəhərinə gəliblər.***



Məktəbliləri “Zəfər Tağı” önündə Gəncə şəhər icra hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev, icra aparatının və şəhər ictimaiyyətinin nümayəndələri, incəsənət məktəbinin şagirdləri qarşılayıblar.

Tur-aksiya iştirakçıları “Ramada” mehmanxanasında yerləşib nahar etdikdən sonra Gəncə şəhəri ilə tanışlığa Heydər Əliyev Park Kompleksindən başlayıblar. Qəbələ məktəbliləri ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini hörmət və ehtiramla anıblar.

Aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin siyasi fəaliyyətinin ayrı-ayrı məqamları, xüsusilə Gəncə şəhərinə tarixi səfərlərini əks etdirən foto və sənədlərlə tanış olublar.

Daha sonra məktəblilər bələdçilərin müşaiyəti ilə “Qala” Arxeologiya və Etnoqrafiya Muzeyi ilə tanış olublar.

**“Qəbələ”**

## Gəncə şəhəri məktəblilərdə xoş təəssürat yaradıb

***Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə tur-aksiyada iştirak edən Qəbələ məktəbliləri martın 27-də Gəncənin tarixi abidələri, müqəddəs məkanları, mədəniyyət mərkəzləri, eləcə də son illərdə inşa edilən turizm və istirahət obyektləri ilə tanış olublar.***



Maarifləndirici tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub. Məktəblilər əvvəlcə şeyx Nizaminin və şairin valideynlərinin qəbirlərini ziyarət ediblər. Şagirdlər türbə ətrafında yaradılan şəraitlə tanış olub, Nizami Gəncəvinin poemalarının motivləri əsasında hazırlanan heykəllərə baxıb, şəkillər çəkdiriblər. Sonra tur-aksiya iştirakçıları Nizami Gəncəvi Muzeyindəki ekponatlara tamaşa ediblər.

Müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan “İmamzadə” kompleksi ilə tanışlıq da şagirdlər üçün maraqlı keçib. “İmamzadə” ziyarətgahında Prezident İlham Əliyevin təşəbbüsü ilə geniş abadlıq, quruculuq işləri aparılıb, ətrafında böyük kompleks yaradılıb.

Daha sonra tur-aksiya iştirakçıları Heydər Əliyev adına meydanda ümummilli liderin abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Məktəblilər XVII əsrin yadigarları olan Şah Abbas Məscidi, Çökək Hamam, Uğurlu xan Karvansarayı ilə tanış olub, Gəncənin sonuncu hökmdarı Cavad xanın türbəsini ziyarət ediblər. Tur-aksiya iştirakçıları daha sonra Məhsəti Gəncəvi adına mədəniyyət mərkəzində olublar. Burada onlar Azərbaycanın ilk qadın şairəsinin həyat və yaradıcılığı haqqında materiallarla tanış olublar. Qəbələ məktəbliləri bu yaxınlarda istifadəyə verilmiş və açılışında Prezident İlham Əliyevin iştirak etdiyi Mirzə Şəfi Vazeh Muzeyində və şairin adını daşıyan parkda olublar. Burada məktəblilərə muzeyin yaranma tarixi və böyük şair və maarifçi Mirzə Şəfi Vazehin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib.

**“Qəbələ”**

## Zəngin səfər təəssüratları ilə ayrılıblar

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi altında keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə ekskursiyaya çıxan Qəbələ məktəbliləri martın 28-də Göygöl və Şəmkir rayonları ilə tanış olublar.

Şagirdlərin Göygöl və Şəmkir rayonları ilə tanışlığı zəngin səfər təəssüratları ilə başa çatıb.

**“Qəbələ”**

## 31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasında 1998-ci ildən 31 mart dövlət səviyyəsində Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Bu soyqırım gününün unudulmaması Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrin milli yaddaşda əbədiliyinin təzahürüdür. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir.

1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında bolşevik maskasına bürünmüş qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası tərəfindən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanılmışdır. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Onlar milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscidləri və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etmişlər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışlar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarı əsasında, 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olmuşlar.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başlamışlar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də davam etmişdir. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilmişdir.

Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət verməmişdir.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilməmişdir. Azərbaycanın Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qanunsuz qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi yazılan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə nəticələndi.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı qəsbkar hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çətin şəraitdə yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

**Qüdrət SƏMƏDOV,**
**“Qəbələ”**

## Maarifləndirmə tədbiri keçirilmişdir

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin təşkilatçılığı və Şimal-qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsi əməkdaşlarının iştirakı ilə martın 16-da Qəbələ Regional “ASAN Xidmət” Mərkəzində “Fövqəladə hallarla bağlı davranış qaydaları” mövzusunda maarifləndirmə tədbiri keçirilmişdir. Tədbirdə “ASAN Xidmət” Mərkəzinin kollektivi iştirak etmişdir.

Tədbirdə dinləyicilərə “Fövqəladə hallar barədə ümumi məlumat”, “Sel və daşqın”, “Zəlzələ”, “Dəm qazı”, “Məişətdə yanğın zamanı davranış qaydaları”, “İlkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları” və “112 qaynar xətti” haqqında geniş məlumatlar verilmişdir. Mövzular video-slayd vasitəsilə müşayət olunmuşdur.

Sonda xilasedicilər tərəfindən xilasetmə alətləri və avadanlıqları izahlı qaydada nümayiş olunmuş, yaralılara ilkin tibbi yardımın edilməsi qaydaları göstərilmişdir.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

## Əhalinin tibbi müayinəsi davam edir

Ölkə başçısının tapşırığına əsasən respublikamızın hər yerində olduğu kimi, Qəbələ də əhalinin tibbi müayinədən keçirilməsi uğurla davam edir.

Əhalinin kütləvi tibbi müayinəsi üçün rayonumuzda hər cür şərait yaradılıb. Sakinlər həkim briqadaları tərəfindən hərtərəfli müayinə edilir, lazım gəldikdə müalicə olunmaq üçün ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilir.

Mayın 1-dək rayon əhalisinin 18 yaşdan yuxarı 73226 nəfərinin tibbi müayinə olunması nəzərdə tutulub.

İndiyədək 17 min nəfərdən artıq adam tibbi müayinədən keçib. Onlardan 1377 nəfər ambulator, 201 nəfər stasionar müalicəyə cəlb edilib, 91 nəfər isə daha ətraflı müayinə və müalicə olunmaq üçün Bakı şəhərinə göndərilib.

**"Qəbələ"**